

*COVID-19 pandemiyası dünya ölkələrini yeni çağırışlarla üz-üzə qoymuşdur. Azərbaycan hökuməti ilk günlərdən pandemiya ilə mübarizə istiqamətində zəruri addımlar atmışdır... Lakin yalnız milli səviyyədə həyata keçirilən səylər dünyada pandemiyanın aradan qaldırılması üçün kifayət etmir. Azərbaycan pandemiyaya qarşı qlobal fəaliyyətin səfərbər edilməsi səylərinin önündə gedir. Azərbaycan Qoşulmama Hərəkatının sədri qismində 2020-ci ilin may ayında Qoşulmama Hərəkatının koronavirusla mübarizəyə həsr edilmiş Zirvə toplantısının təşəbbüskarı olmuş və onu uğurla keçirmişdir.*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

# AZƏRBAYCAN HƏQİQƏT VƏ ƏDALƏT TƏRƏFDARIDIR

## Ötən ilin aprelində Prezident cənab İlham Əliyev BMT-nin Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasının 77-ci sessiyasında videoformatda çıxış etmişdir

**BMT-nin qərargahı Tailandda yerləşən Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasının "Asiya və Sakit okean hövzəsində regional əməkdaşlıq vasitəsilə böhrandan sonra daha güclü inkişafın təmin olunması" mövzusuna həsr edilən 77-ci sessiyası keçən il aprelin 26-da baş tutmuşdur.**

Həmin tarixdə sessiyanın Asiya və Sakit okean regionu ölkələrinin dövlət və hökumət başçılarının çıxışları seqmentində dövlət başçımız videoformatda nitq söyləmişdir. Cənab İlham Əliyev ilk öncə Azərbaycanın Asiya və Sakit okean hövzəsi ölkələri ilə münasibətlərə böyük əhəmiyyət verdiyini vurğulamışdır.

Ölkəmizdə COVID-19 pandemiyası ilə əlaqədar həyata keçirilən tədbirlərə toxunan cənab Prezident Azərbaycan hökumətinin pandemiyanın ilk günlərindən bu bəla ilə mübarizə istiqamətində bütün zəruri addımları atdığını qeyd etmişdir.

COVID-19 pandemiyası ilə mübarizə sahəsində ölkəmizdə həyata keçirilən tədbirlər ilk gündən düşünülmüş və davamlı xarakterə malik idi. Azərbaycanın bütün ərazisində COVID-19 pandemiyası dövründə həyata keçirilmiş mübarizə tədbirləri beynəlxalq səviyyədə yüksək qiymətləndirilmişdir. Dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi, habelə hökumət və aidiyyəti dövlət qurumları tərəfindən pandemiya dövründə risklərin düzgün qiymətləndirilməsi nəticəsində həyata keçirilmiş qabaqlayıcı tədbirlər bu gün öz müsbət nəticələrini verməkdədir.

Diqqətçəkən məqam bundan ibarətdir ki, ölkə ərazisində bu sahədə vaxtında həyata keçirilmiş operativ tədbirlər nəticəsində əhalinin sosial və digər maraqlarının nəzərə alınması və onların təmin edilməsi üçün lazımi işlər görülmüşdür. O cümlədən əhaliyə maddi, həmçinin vətəndaşların sağlamlıqlarının qorunması üçün əlçatan və keyfiyyətli tibbi yardım göstərilmiş, bu məqsədlə yeni modul tipli xəstəxanalar istifadəyə verilmişdir. Bununla əlaqədar sözügedən tədbirdə videoformatda çıxış etmiş dövlət başçımız cənab İlham Əliyev xüsusilə vurğulamışdı ki, Azərbaycan hökuməti ilk günlərdən pandemiya ilə mübarizə istiqamətində zəruri addımlar atmışdır: "Koronavirusun iqtisadiyyata təsirinin azaldılması, özəl sektorun dəstəklənməsi, makroiqtisadi və maliyyə dayanıqlılığının təmin olunması məqsədilə geniş sosial-iqtisadi paket təqdim edilmişdir".

Pandemiya dövründə həyata keçirilən bu məqsədyönlü tədbirlər sayəsində Azərbaycan digər ölkələrlə müqayisədə az itkilər verdi. Ölkə başçısı cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın pandemiya dövründə müdrik addımlar ataraq insanların həm maddi, həm də mənəvi ehtiyaclarının ödənilməsi, əhalinin sağlamlığının qorunması istiqamətində gördüyü işlər nəticəsində vətəndaşlarımız daim dövlətin qayğısını hiss etmişdir.

Bununla bərabər, Nazirlər Kabineti yanında Operativ Qərargahın fəaliyyətə başlaması, Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması, karantin rejiminin tətbiqi məhz koronavirusla effektiv mübarizəyə xidmət edirdi. Ölkəmizə Avropa istehsalı olan laborator testlər, tibb avadanlığı və ləvazimatlar, qoruyucu vasitələr vaxtında gətirilərək tibb müəssisələrinə təhvil verildi. Yeni laboratoriyalar formalaşdırıldı. Ölkədə mövcud olan müasir laboratoriyaların sayını artırmaqla, koronavirusa görə testlərin sayında da əhəmiyyətli dərəcədə artımlara nail olundu. Təsadüfi deyil ki, qısa müddət ərzində adambaşına düşən testlərin sayına görə Azərbaycan dünya miqyasında qabaqcıl yerlərdə qərarlaşdı. Tez bir zamanda səhiyyə sisteminin effektiv fəaliyyətini təmin edən tədbirlər görüldü. Həmin işlər virusun daha böyük miqyasda yayılmasının qarşısını almağa, yoluxanların müalicəsi üçün imkanların genişləndirilməsinə şərait yaratdı. Koronavirus xəstələrini müalicə etmək üçün ölkəmizdə ən qabaqcıl xəstəxanalar ayrılmışdı, belə xəstəxanaların sayı iyirmidən çoxdur. Eyni zamanda, karantin şəraitində qalan vətəndaşlar üçün də dünya təcrübəsi ilə müqayisədə respublikamızda xüsusi şərait yaradılmışdı. Azərbaycan nadir ölkələrdəndir ki, koronavirusa yoluxan bütün xəstələr tibbi müəssisələrdə müalicə alır. Əlbəttə, bütün bunlar öz müsbət nəticəsini vermişdir.

Azərbaycan koronavirus pandemiyasına qarşı sadəcə regionda öndə gedən dövlət deyil, həm də bəzi inkişaf etmiş ölkələrlə müqayisədə daha yüksək təşkilatçılıq və peşəkarlıq nümayiş etdirmiş bir ölkədir. Bununla yanaşı, dövlətimiz tərəfindən həkimlər üçün xüsusi geyimlər, kombinezonlar istehsal edilməsi təşkil olunmuşdur. Azərbaycanda COVID-19 ilə mübarizədə əldə olunmuş nailiyyətlər Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən də yüksək qiymətləndirilmiş, ölkəmiz bu mübarizədə nümunəvi ölkələr siyahısına daxil edilmişdir.

Öz çıxışında cənab İlham Əliyev beynəlxalq birliyin uzun illər ərzində Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi işğalın qarşısını ala bilmədiyini qeyd etdi: "1993-cü ildə BMT Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul etmişdir. Lakin həmin qətnamələr heç vaxt Ermənistan tərəfindən icra edilməmişdir. Mən ikili standartlara yol verilməməsi üçün tərəfdaş ölkələri BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizmlərinin təklif edilməsi və hazırlanması səylərinə qoşulmağa dəvət edirəm. Biz Təhlükəsizlik Şurasının bəzi qətnamələrinin bir neçə gün ərzində icra edildiyinin şahidi olmuşuq. Azərbaycana gəldikdə isə həmin qətnamələr 27 il ərzində yerinə yetirilməmiş qaldı. Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə Ermənistanın əməl edəcəyinə dair heç bir ümid yox idi. Bütün bu illər ərzində Ermənistana qarşı heç bir təzyiq olmamış və sanksiyalar tətbiq edilməmişdir".

Bəli, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə rəşadətli ordumuz, Azərbaycan xalqı tarixi ədaləti özü bərpa etdi.

Məlum olduğu kimi, 1994-cü ilin mayında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində atəşkəs elan edilmişdi. Münaqişənin həlli üçün yaradılmış ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə sülh danışıqlarına başlanıldı. Azərbaycan ərazi bütövlüyünü sülh danışıqları ilə təmin etməyə çalışır, Ermənistan isə status-kvonu saxlamaq, danışıqları sonsuza qədər uzatmaq üçün əlindən gələni edirdi. Bunun üçün tez-tez təxribatlara əl atan Ermənistan dövləti həmişə Azərbaycanın sülhməramlı səylərini nəticəsiz qoymağa və sülh danışıqlarını pozmağa can atırdı. Təmas xətti boyunca mövqelərimizin atəşə tutulması, erməni rəhbərlərinin Şuşaya səfərləri və təxribatçı bəyanatları buna misaldır. Azərbaycan isə həmişə sülh danışıqlarına beynəlxalq hüququn norma və prinsiplərinə sadiqlik nümayiş etdirmişdir.

Ölkəmizin 44 günlük müharibədə şanlı qələbəsi işğal olunmuş torpaqlarımızın geri qaytarılması ilə nəticələndi. İşğaldan azad olunmuş ərazilərimizdə isə erməni faşizminin təzahürlərini hər yerdə görmək mümkündür. Bu məsələyə toxunan dövlət başçısı qeyd etmişdir: "İşğal dövründə Azərbaycanın bütün şəhər və kəndləri yerlə-yeksan edilmişdir. Xarici mütəxəssislər Ağdam şəhərini "Qafqazın Hirosiması" adlandırırlar. Ermənistan qəsdən mədəni və dini abidələrimizi vandalizmə məruz qoymuş, təhqir və qarət etmişdir. 60-dan artıq məscid Ermənistan tərəfindən dağıdılmışdır. Məscidlər inək və donuzların saxlanılması yerlərinə çevrilmişdir".

Azərbaycanın mədəni irsinə qarşı erməni barbarlığının bir adı var ki, o da vandalizmdir. Dünya erməni vəhşiliyinin ölçüyəgəlməz dərəcəyə yüksəlməsinin fərqindədir, amma çox təəssüflər olsun ki, yenə də ermənilərin bu vandalizm əməllərinə göz yummaqda davam edir. Bu günümüzün real mənzərəsi budur ki, Azərbaycan dövlətinin qətiyyəti, rəşadətli ordumuzun gücü 30 il o kor gözləri, kar qulaqları açdı, işğalçı Ermənistanı çökdürməklə ona havadarlıq edən dövlətlərə tarix, hüquq və hərb dərsi keçdi. Ermənilər işğaldan azad edilmiş ərazilərimizi tərk edərkən özləri ilə apara bilmədikləri hər şeyi yandırır, məhv edirdilər.

Ümid edirik ki, nəhayət, dünyanın 30 ildən sonra açılan gözləri, eşidən qulaqları ədalət meyarının bundan sonra bütün dövlətlərə eyni mexanizm əsasında tətbiq olunmasına yardımçı olacaq. Əminik ki, quldur, cinayətkar və terrorist bir ölkə - Ermənistan beynəlxalq hüquq çərçivəsində layiq olduğu cəzasını alacaq.

**Emin QASIMOV,**
**"Respublika".**